

**Şərif Ağayar**

# Hüseynovla Muğanna arasında

Bədii əsəri bir neçə cür oxumaq olur. Bunların ən sadəsi təmənnasız oxumaqdır. Oxuyursan, ya sevirsən, ya sevmirsən. Oxuyub bitirəndən sonra kitab da, yazıçı da səndən ötəri keçmişdə qalır və necə deyərlər, durub gedirsən işinin-gücünün dalınca...

Oxumaların ən mürəkkəbi, şübhəsiz ki, tənqidçi-ədəbiyyatşünas oxumasıdır. Əsəri oxuya-oxuya özünə müxtəlif suallar verirsən və bu sualların cavabını axtarırsan. Bir növ təmənnalı oxuyursan, peşə kimi oxuyursan, hər şeyi izah eləməyə çalışırsan.

Bir də var yazıçının yazıçını oxuması... Mən bunun adını "ləzzətli mütaliə" qoyardım. Söhbət ondan gedir ki, sən obrazların adından tutmuş böyük konfliktlərin qurulması və həllinə qədər hər şeyi "Mən necə edərdim?" məntiqiylə oxuyursan, müəlliflə aranda gözəgörünməz savaş başlayır. Şübhəsiz ki, bu savaş estetik savaşdır və bu savaşda uduzmağın ayrı, udmağın ayrı ləzzəti var.

Estetik savaşda yazıçının "sənə qarşı" işlətdiyi fəndlər nə qədər gizlin, nə qədər mübhəm və nə qədər güclüdürsə oxu prosesi o qədər zövqlü olur. Fəndlər ələ gələn, sadə və zəifdirsə, mətn öz-özünə adiləşir.

Mən özüm də nəsrlə məşğul olduğum üçün böyük yazıçımız İsa Muğannayla bağlı yazımı üçüncü növ oxucu kimi qələmə alacam. Zəhmət olmasa, siz də bu yazını yazıçının yazıçı haqqındakı yazısı kimi oxuyun. Əslində, belə təqdimatla özümü tərifləmirəm, əksinə, subyektiv görünə biləcəyim məqamları bəri başdan sığortalayıram.

İsa Muğanna daxilimdə ən çox estetik savaş apardığım yazıçıdır. Çünki o, mənim üçün, qorxmadan söyləyim, Azərbaycanın ən böyük yazıçısıdır.

Mirzə Cəlilin yaratdığı, 50-ci illərin dil və mətn qatında geniş miqyasa çıxartdığı böyük Azərbaycan nəsri İsa Muğannada durulmağa, dərinləşməyə, əsl proza əhəmiyyəti kəsb etməyə başladı. O, hadisələrə ədalətli münasibətinə görə Mirzə Cəlilə bənzəsə də müharibədən sonrakı dövr Azərbaycan nəsrinin dil və mətn qatında yiyələndiyi peşəkarlığı da canına hopdurmuşdu. Onun dili, leksikonu, düşüncəsi əsrin əvvəllərinə nisbətən daha da zənginləşmişdi.

İsa Muğanna - dünyanın dörd bir yanından nəsə öyrənə, bilik və intellektini zənginləşdirə bilərsən, ancaq ədəbi coğrafiyadakı yerin öz budaqların üstündədir fikrinin canlı isbatıdır.

İsa Muğananın Azərbaycan nəsrini çıxardığı yeni abzasdan modern nəsrimiz yarandı. Şübhəsiz, onun bir çox əsərini modernizmin ilk nümunələri hesab etmək olar.

Ədəbiyyatda metonimiya anlayışı var. Bu ifadə bizim dilimizə təxminən addəyişmə, adqoyma kimi tərcümə olunur. Ədəbiyyat sözün böyük mənasında bir metonimiyadır. Yazıçı obrazdan, kənd-kəsəkdən, xəyali məkandan tutmuş geniş situasiyaya qədər hər şeyin adını qoymaqla məşğuldur.

İsa Hüseynov obrazlarına hansı ustalıqla ad qoyurdusa, təsvir etdiyi vəziyyətlərə, situasiyalara, konfliktlərə eyni ustalıqla metonimiya yaradırdı.

Hətta onun ömrünün son illəri böyük bir metonimiya idi; adqoymaya o qədər aludə olmuşdu ki, bizim dünyamızı tamamilə unutmuşdu.

İsa Muğanna yaratdığı dünyanın bəndəsinə çevrilən nadir varlıq kimi qaldı yaddaşımızda. Halbuki, Markes kimi, Folkner kimi o dünyanın tanrısı olmalı, nə qədər içində yaşasa da, ondan kənarında dayanmağı bacarmalıydı.

Yüz dəfə demişəm, bir də deyim: o, ispan, ingilis, italyan yazıçısı olsaydı, bircə "Məhşər"ə görə bütün dünya onu tanıyıb qəbul edəcəkdi.

Deməmişəm, bu yazıda deyim: İsa Hüseynov bu gün dünyada məşhur olan, Nobel alan və almayan yazıçıların əksəriyyətindən balaca deyil.

Bu fikri sübut etmək üçün əlimdə çoxlu real faktlar ola-ola ədəbiyyat intuisiyama da arxayınam.

Bir dəfə tanınmış şairlərimizdən biri söylədi ki, yazıçı kitabları bağlayandan sonra nə qədər yadda qalırsa, elə o qədərdir.

Əgər bu fikir həqiqətdirsə, İsa Muğanna çox yazıçıdan dəfələrlə böyükdür. Mən indi ha düşünürəm başqa heç bir yazıçıda Kollu Koxa, Qılınc Qurban, Sultan Əmirlə, Milli, Tapdıq, Cümrü, Şöşü, Sayalı, İsfəndiyar kişi, Şəpəli qədər dərin və parlaq obrazlar ağlıma gəlmir.

Və bayaqkı metonimiya söhbətinə qayıdıb bu adlardakı estetik gözəlliyə, enerjiyə baxaq...

Bir var adama doğulanda verilən ad, bir var ona qoyulan ayama. Şübhəsiz ki, ayama insanın xarakterini daha dərindən ifadə edir. Çünki ad hamıya uşaqkən böyük sevgiylə qoyulur, ayamanı adam özü qazanır. Ayama amansız gerçəkliyin təcəllası kimi doğulur. Hətta bəzən o qədər amansız olur ki, ortaya inciklik düşür.

İsa Muğannanın Kollu Koxası da adamlara ayama qoyur və onun ayamasından sonra əsl ad unudulur. Çünki, düzünü Kollu Koxa deyir.

Kollu Koxa əslində, İsa Muğannanın özüdür.

İsa Muğanna da ad verir, ad dəyişir, ad qoyur və reallığı olduğundan daha gerçək ifadə edə bilir.

Hər hansı bir mətni yazıçı kimi oxuyanda həm də onun səsini eşidirsən. Mətnin istənilən naşılığı, fitrətdən gəlməyən, hər hansı bir bicliklə əldə olunan məqamları bu səsin zəifləməsinə, batmasına gətirib çıxarır.

Mətnin səsi onun arxasında yazıçını həmişə diri saxlayır. Yazıçının diri qalması elə mətnin də əbədi yaşaması deməkdir. Əsl mətni söz yığınından bax bu səs fərqləndirir.




Səsi olmayan və ya eşidilməyən mətnlərlə söz yığınının fərqi yoxdur.

Səs yoxdursa yazıçı yoxdur, səs eşidilmirsə oxucu...

İsa Muğanna güclü səsi olan və bu səsi oxucusuna yetişən xoşbəxt yazıçıdır.

Hətta "Məhşər"dən başlayaraq, "İdeal"da davam edərək onun mətnindən gələn səslərə magik bir qorxu da qarışmışdı. Bilmirəm yazıçının öz taleyinin kədərli sonluğundan idi bu, yoxsa görəcəyimiz ağır günlərin vahiməsindən, hər halda, bu səsi lap gəncliyimdən duymuşdum və səmimi deyim, qorxmağa başlamışdım. Hətta, indinin özündə də eymənirəm desəm, çalışın mənə inanasınız.

İsa Hüseynovun mətnində mənə çox doğma gələn bu səsin, bu "gur ün"ün sonralar vahiməyə bürünməsinin sirrini özüm üçün aça bilmədiyimə görə həmişə narahatam. Ən azı intuisiyam mənə bu barədə nəsə deməli idi, ancaq demədi və demir.

Mən İsa Muğannayla o estetik savaşda sürəkli məğlubiyyətdəyəm və buna görə ona acığım da tutur. Çünki mənə elə gəlir ki, bu məğlubiyyət yaxşı məğlubiyyət deyil və bu məğlubiyyət təkcə mənim yox, nəsrimizin məğlubiyyətidir.

İsa Muğanna son əsərlərində və müsahibələrində elə bil yolu azdırır, dalınca kiminsə gəlməsinə istəmirdi.

Amma insaf naminə onu da deyim ki, İsa Muğanna Odər fəlsəfəsi ilə bağlı cəfəngiyat danışmırdı. Eyni mətləblərdən təkrar söz açanda əvvəlki məntiqi azmırdı. Sadəcə, yuxarıda qeyd etdiyim kimi, bu sirli dünyaya oxucudan artıq özü inandığı üçün söhbət ədəbiyyatdan çox ezoterikadan, konspirologiyadan və bəlkə hallüsinasiyadan gedir...

Bizsə İsa Hüseynovu son ana qədər yalnız ədəbiyyatda görmək istərdik.

Yadıma Selincer düşür... O da zen-buddizmə gedib çıxdı, o da inandı. Lakin İsa Muğannadan fərqli olaraq sükutu sözdən üstün tutan bu inancla ədəbiyyatdan tamamilə aralanmaq lazım olduğunu anladı və demək olar ki, yazmadı və danışmadı.

Ədəbiyyatın öz üzərində heç bir ideyanı qəbul etmir - İsa Muğannanın yazıçı kimi hesablaşmadığı amansız həqiqətlərdən biri də bu idi!

O, "İdeal"la artıq metafizik aləmə qalxmışdı və buna görə zamandan cüda düşmüşdü. Sağ bir yazıçının zamandan cüda düşməsi fəlakətdir. Təsəvvür edin, İsa Muğannayla Umberto Ekonu müqayisə edirik... Biri nə qədər yuxulu, o biri nə qədər ayıqdır... Biri zamanı duymadığı halda, o biri ona istiqamət verəcək qədər müdrikdir.

Əksinə, İsa Muğanna öz qapalı dünyasına o qədər aludə oldu ki, son əsərləri ümumiyyətlə oxunulmaz hala gəldi.

Bütün deyilənlərə baxmayaraq, düşünürəm ki, İsa Muğanna yaradıcılığının son dövrlərini nə qədər mistik dumana, magik vahiməyə bürüsə də öz missiyasını yerinə yetirdi.

Ən vacibi, Azərbaycan nəsrinə polifoniya gətirdi. Biz İsa Muğannaya qədər birmənalı müsbət və birmənalı mənfi obrazların ağqaralığından bezmişdik. Vəziyyət o qədər qəliz idi ki, "Böyük dayaq" romanındakı Rüstəm kişinin ikiləşməsi böyük ədəbiyyat hadisəsi kimi görünürdü.

İsa Muğanna həm də ədəbiyyatdakı Stalin kultunu yona-yona yazılı düşüncəmizdən rədd eləməyi bacardı. Onu gah Qılınc Qurban kimi Kollu Koxanın cənginə verdi, gah Sultan Əmirli kimi vicdanı ilə üz-üzə qoydu.

Və müharibə dövrü povestlərində qələbədən və məğlubiyyətdən asılı olmayaraq bu gedişlərin neçə-neçə bədbəxt Cümrülər yaratdığını sarsıdıcı boyalarla göstərdi. Cümrü Azərbaycan nəsrinin ən kədərli obrazıdır. Onun taleyi Məmmədhəsən əminin bir eşşək dərdindən vərəmləyib ölən nakam oğlunun da, Qaraca qızın da taleyindən dəhşətlidir. Və sonrakı hadisələr göstərdi ki, həqiqətən də bizi ən doğmalarımız belə atıb gedə bilər...

Sonda onu da deyim: çox nadir bədii yazılarım ola bilər ki, orda Mirzə Cəlillə, İsa Muğannayla bu və ya digər şəkildə dialoqa girməyim. Bu bəzən açıq göndərmələr şəklində olub, bəzənsə içimin dərinliklərində, yalnız özümə bəlli şəkildə.

Bədii əsəri yazıçı kimi oxuyanda ənənənin nə demək olduğunu praktiki olaraq görürsən. Dünya ədəbiyyatına əl uzada, ürək qızdıra, könül verə bilərsən, amma ona əsla və əsla kürək söykəyə bilmirsən. Kürək söykəmək üçün səndən əvvəl sənin dilində yazan sənətkara böyük ehtiyac duyursan. Bu cür sənətkarlarsız ədəbiyyat yetim qalır.

Ədəbiyyatın yetimliyindən Allah saxlasın.